# 2010-cu il


- **Y A N V A R**
- **F E V R A L**
- **M A R T**
- **A P R E L**
- **M A Y**
- **İ Y U N**
- **İ Y U L**
- **A V Q U S T**
- **S E N T Y A B R**
- **O K T Y A B R**
- **N O Y A B R**
- **D E K A B R**

## Y A N V A R

**3 yanvar** Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdariyə Lakki Marvat şəhərində törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**13 yanvar** İvo Yosipoviçə Xorvatiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Mahinda Racapaksaya ölkənin milli bayramı - Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**14 yanvar** Haiti Respublikasının Prezidenti Rene Prevala ölkədə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar başsağlığı vermişdir.

**15 yanvar** ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**19 yanvar** "Euronews" telekanalının müxbiri Laura Davideskuya müsahibə vermişdir.

**21 yanvar** ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Türkiyənin təhsil naziri xanım Nimet Çubukçunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**23 yanvar** Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun iştirakçılarından ibarət nümayəndə heyətini qəbul etmişdir.

**25 yanvar** **Rusiya Federasiyasının Soçi şəhərində işgüzar səfərdə olmuşdur.**

Soçinin "Adler" Beynəlxalq hava limanında Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə görüşmüşdür.

Soçidə Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə birgə görüşü olmuşdur.

Rusiya Prezidenti Dmitri Medvedev və Ermənistan Prezidenti Serj Sarkisyan ilə Soçidə keçirilmiş üçtərəfli görüşündən sonra dövlət başçıları dağ xizəksürmə mərkəzində olmuşlar.

**26 yanvar** Mövlud Çavuşoğluya Avropa Şurası Parlament Assambleyasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Girma Volde-Giorgisə "Ethiopian Airlines" şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

Livan Respublikasının Prezidenti Mişel Süleymana Beyrut şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**27 – 28 yanvar** **İsveçrədə işgüzar səfərdə olmuşdur.**

Davosda Sloveniya Prezidenti Danilo Türkü ilə görüşü olmuşdur.

Davosda bp şirkətinin baş icraçı direktoru Toni Heyvord ilə görüşmüşdür.

Davosda "Edisson" şirkətinin baş icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür.

Davosda RWE şirkətinin baş icraçı direktoru Yurgen Qrosman ilə görüşmüşdür.

Davosda "Chevron" korporasiyasının vitse-prezidenti Cey Prior ilə görüşmüşdür.

Davosda "The Wall Street Journal"ın müxbirlərinə müsahibə vermişdir.

Davosda "Bloomberg" informasiya agentliyinin xüsusi müxbiri Yuri Hamberə müsahibə vermişdir.

**28 yanvar** Davosda 40-cı Dünya İqtisadi Forumun "Qlobal enerji mənzərəsi" mövzusunda keçirilmiş iclasında çıxış etmişdir.

Davosda Latviya Respublikasının Prezidenti Valdis Zatlers ilə görüşü olmuşdur.

Davosda, "Neft və qaz geosiyasəti: yeni sərhədlər" mövzusunda keçirilmiş sammitdə iştirak etmişdir.

Davosda İsveçrə Prezidenti xanım Doris Loyhardın görüşü olmuşdur.

Davosda Polşa Prezidenti Lex Kaçinski ilə görüşmüşdür.

Davosda Böyük Britaniyanın York hersoqu, şahzadə Endryu ilə görüşmüşdür.

Davosda İordaniya Kralı II Abdullah ilə görüşü olmuşdur.

## FEVRAL

**1 fevral** Mahinda Racapaksaya Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**4 – 6 fevral** **Almaniya Federativ Respublikasında işgüzar səfərdə olmuşdur.**

**4 fevral** Berlində, Almaniya Federativ Respublikası kanslerinin iqamətgahında kansler xanım Angela Merkel ilə birgə mətbuat üçün bəyanatla çıxış etmişdir.

46-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Berlindən Münxenə yola düşmüşdür.

**5 fevral** Münxendə Alman-Azərbaycan Forumunun üzvləri ilə görüşmüşdür.

Münxendə Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.

Münxen Təhlükəsizlik Konfransının "Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc" mövzusunda keçirilən müzakirələrində çıxış etmişdir.

Münxendə ABŞ dövlət katibinin birinci müavini Ceyms Steynberq ilə görüşmüşdür.

**6 fevral** Münxendə İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəki ilə görüşmüşdür.

**8 fevral** Karolos Papulyasa Yunanıstan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejada ölkənin milli bayramı - İslam İnqilabı Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Serbiya Respublikasının Prezidenti Boris Tadiçə ölkənin milli bayramı – Dövlətçilik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Litva Prezidenti xanım Dalya Qribauskayteyə ölkənin milli bayramı – Litva dövlətinin bərpası günü münasibətilə təbrik məktubu göndərmişdir.

**9 fevral** İsrailin xarici işlər naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**10 fevral** Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Beylinin etimadnaməsini qəbul etmişdir.

Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladimir Curgusun etimadnaməsini qəbul etmişdir.

Mali Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Brahima Kulibalinin etimadnaməsini qəbul etmişdir.

AŞPA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmmərüzəçiləri Andres Herkeli və Debona Qrexi qəbul etmişdir.

Qambiya Respublikasının Prezidenti Yəhya Cammehə ölkənin milli bayramı - Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**10 fevral** Bruney Darüssalamın Sultanı Hacı Həssənal Bolkiaha ölkənin milli bayramı - Milli Gün münasibətilə təbrik məktubu göndərmişdir.

Estoniya Respublikasının Prezidenti Toomas Hendrik İlvesə ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha ölkənin milli bayramı - Milli Gün münasibətilə təbrik məktubu göndərmişdir.

**12 fevral** Viktor Yanukoviçə telefonla zəng edərək Ukraynada prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik etmişdir.

Ukrayna Regionlar Partiyasının lideri Viktor Yanukoviçə prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik məktubu göndərmişdir.

**15 fevral** Qazaxıstanın dövlət katibi-xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Kanat Saudabayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Slovakiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yozef Miqaşın etimadnaməsini qəbul etmişdir.

Qırğızıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Raimkul Attakurovun etimadnaməsini qəbul etmişdir.

İspaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xuan Klos i Mateonun etimadnaməsini qəbul etmişdir.

Qazaxıstana gedərkən yolüstü Bakıda dayanan İsrailin keçmiş Baş naziri Exud Olmerti qəbul etmişdir.

**16 fevral** Belçikanın Kralı II Albertə Brüssel şəhəri yaxınlığında baş vermiş ağır dəmir yolu qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**18 fevral** Polşanın Milli Təhlükəsizlik Bürosunun rəhbəri Aleksandr Şçıqlonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bolqarıstan Prezidenti Georgi Pırvanova ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

Qana Respublikasının Prezidenti Con Evans Atta Millsə ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**19 fevral** ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Uilyam Börnsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**22 fevral** Portuqaliya Respublikasının Prezidenti Anibal Kavaku Silvaya Madeyra adasında baş vermiş güclü daşqın nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

Mərakeşin Kralı VI Məhəmmədə Meknes şəhərində məscidin minarəsinin uçması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**24 fevral** Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**24 fevral** Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə Balıkəsir vilayətindəki şaxtada baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**25 fevral** Əli Doğramacıya Türk dünyasının böyük oğlu, görkəmli ictimai xadim, dünya şöhrətli alim və maarifçi, müdrik və xeyirxah insan İhsan Doğramacının vəfatı ilə ilə əlaqədar başsağlığı vermişdir.

**26 fevral** BMT-nin rezident əlaqələndiricisi Bruno Puezanı fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul etmişdir.

## MART

**1 mart** Çili Respublikasının Prezidenti xanım Mişel Baçelet Xeriyaya ölkədə baş vermiş dəhşətli zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**2 mart** Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammerberqi qəbul etmişdir.

Avropa Xalq Partiyasının prezidenti Vilfred Martinsi qəbul etmişdir.

İspaniya Krallığının xarici işlər və əməkdaşlıq naziri Migel Angel Moratinosun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Fransa Respublikasının Prezidenti Nikola Sarkoziyə ölkədə baş vermiş "Ksintiya" qasırğası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

İrlandiyanın Prezidenti xanım Meri Makalisə ölkənin milli bayramı - Müqəddəs Patrik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Tunis Respublikasının Prezidenti Zeynulabidin Ben Əliyə ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**3 mart** Rusiya Federasiyası Baş nazirinin birinci müavini İqor Şuvalovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Niderlandın Xarici İşlər Nazirliyinin baş katibi, nazirin müavini Ed Kroninburqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Filippinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pedro O.Çanın etimadnaməsini qəbul etmişdir.

İrlandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Rasselin etimadnaməsini qəbul etmişdir.

Liviyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saad Mustafa Mucbirin etimadnaməsini qəbul etmişdir.

Danimarkanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Egberg Mikkelsenin etimadnaməsini qəbul etmişdir.

**4 mart** Gürcüstan Prezidenti Mixeil Saakaşviliyə Tkibuli şəhərindəki şaxtada baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**5 mart** Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə telefonla zəng edərək Amerika Birləşmiş Ştatları Konqresinin Nümayəndələr palatasının xarici əlaqələr komitəsində qəbul edilmiş qərarla bağlı öz etirazını ifadə edərək, onu qəti şəkildə pisləmişdir.

**8 mart** Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə Əlazığ vilayətində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**9 mart** İraqın ölkəmizdəki səfiri Ərşad Ömər İsmayılı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

**10 mart** Polşa Respublikasının Baş naziri Donald Tuskun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**10 mart** RWE şirkətinin idarə heyətinin sədri Yurgen Qrosmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**11 mart** Koreya Respublikasının torpaq, nəqliyyat və dəniz işləri üzrə naziri Çanq Conq Hoanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdariyə ölkənin milli bayramı - Pakistan Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Banqladeş Xalq Respublikasının Prezidenti Zillur Rəhmana ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasa ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**12 mart** Misir Ərəb Respublikasının Prezidenti Məhəmməd Hüsni Mübarəkə Görkəmli din xadimi, Əl-Əzhərin Şeyxi doktor Məhəmməd Səid Tantavinin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**13 mart** Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə ölkənin cənubunda baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**15 mart** ATƏT Parlament Assambleyasının sədri Joao Suareşin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Slovakiyanın xarici işlər naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**16 mart** Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Tomas Mirounun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**18 mart** Rumıniyanın xarici işlər naziri Teodor Bakonskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**19 mart** Sinqapurun xarici işlər naziri Corc Yonq-Bun Yeonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyə Respublikası Prezidenti Administrasiyasının baş katibi Mustafa İseni qəbul etmişdir.

**29 mart** Rusiya Federasiyasinin Prezidenti Dmitri Medvedevə Moskva metropolitenində törədilmiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**31 mart** Vatikanın ölkəmizdəki apostol nunsisi Klaudio Qucerottini qəbul etmişdir.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə Bin Zaid Al Nəhəyana qardaşı Şeyx Əhməd bin Zaid Al Nəhəyanın faciəli şəkildə həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

## A P R E L

**2 aprel** Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti Alişer Usmanovu qəbul etmişdir.

**5 aprel** Danimarkanın Kraliçası Ülyahəzrət II Marqreteyə ölkənin milli bayramı - Təvəllüd günü münasibətilə təbrik məktubu göndərmişdir.

Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar Əl-Əsədə ölkənin milli bayramı – Evakuasiya günü münasibətilə təbrik məktubu göndərmişdir.

İsrail Dövlətinin Prezidenti zati-aliləri cənab Şimon Peresə ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**6 aprel** Almaniya Bundestaqının üzvü, Ümumdünya Bərpa Olunan Enerji Şurasının həmsədri Hermann Şheeri qəbul etmişdir.

**6-8 aprel** **Estoniyada dövlət səfərində olmuşdur.**

**7 aprel** Tallinndə Estoniya Prezidenti Toomas Hendrik İlvesin təkbətək görüşü olmuşdur.

Tallinndə təkbətək görüş başa çatdıqdan sonra Estoniya Respublikasının Prezidenti Toomas Hendrik İlves birgə Bəyannamə imzalamışdır.

Tallinndə Estoniya və Azərbaycan nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Tallinndə geniş tərkibdə görüşdən sonra prezidentlər mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Tallinndəkı Vabaduze meydanına gələrək, Müstəqillik uğrunda mübarizə abidəsini ziyarət etmişdir.

Tallinnin Köhnə şəhərində yerləşən və buranın əsas yerlərindən olan Ratuşaya gəlmişdir.

Tallinndə Estoniyanın Baş naziri Andrus Ansip ilə görüşmüşdür.

Tallinndə Estoniyanın Xarici İşlər Nazirliyində mühazirə ilə çıxış etmişdir.

Tallinndə “Microlink” şirkətindəki informasiya-kommunikasiya texnologiyaları Sərgi Mərkəzində olmuşdur.

Tallinndə Estoniyanın sabiq Prezidenti Arnold Rütel ilə görüşmüşdür.

**8 aprel** Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoang Çunng Hayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Mavritaniya İslam Respublikasının xarici işlər naziri xanım Naha Mint Muknassın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**9 aprel** Avropa İttifaqının genişləndirilməsi və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyə xarici işlər nazirinin müavini Firudin Sinirlioğlunu qəbul etmişdir.

Braziliya Federativ Respublikasının Prezidenti Luis İnasiu Lula Da Silvaya ölkədə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar başsağlığı vermişdir.

**10 aprel** Polşa Respublikası Prezidentinin vəzifəsini icra edən Polşa Respublikası Seyminin sədri Bronislav Komorovskiyə Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin və xanımı Mariya Kaçinskanın, Polşa Prezidenti Administrasiyasının məsul işçilərinin, Senat və Seym üzvlərinin, Polşa ordusunun yüksək rütbəli zabitlərinin təyyarə qəzasında faciəli surətdə həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**12 aprel** Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammehin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Polşa Respublikasının ölkəmizdəki səfirliyində olmuş, Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin və xanımı Mariya Kaçinskanın, Polşa Prezidenti Administrasiyasının məsul işçilərinin, Senat və Seym üzvlərinin, Polşa ordusunun yüksək rütbəli zabitlərinin təyyarə qəzasında faciəli surətdə həlak olması ilə əlaqədar başsağlığı vermiş, matəm kitabına ürək sözlərini yazmışdır.

**13 aprel** Heydər Əliyev adına İdman-Konsert Kompleksində sərbəst, yunan-Roma və qadın güləşi üzrə Avropa çempionatının təntənəli açılışı mərasində iştirak etmişdir.

Roma Papası XVI Benedikt həzrətlərinə Tacqoyma günü münasibətilə təbrik məktubu göndərmişdir.

Cənubi Afrika Respublikasının Prezidenti Ceykob Zumaya ölkənin milli bayramı - Azadlıq günü münasibətilə təbrik məktubu göndərmişdir.

Niderland Kraliçası Beatriksə ölkənin milli bayramı - Kraliça Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**15 aprel** Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Oettingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Hindistan Respublikasının Prezidenti xanım Pratibha Patilə ölkəsində baş vermiş güclü qasırğa nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**16 aprel** Bakıda "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.

**17 aprel** Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin siyasət üzrə müavini Mişel Flournoyun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**19 aprel** Türkiyə Respublikasının xarici işlər naziri Əhməd Davudoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**20 aprel** ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından olan həmsədri Robert Bradkeni qəbul etmişdir.

**20 aprel** ATƏT-in Minsk qrupunun Rusiyalı həmsədri Yuri Merzlyakovu fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Ukraynanın ölkəmizdəki səfiri Boris Klimçuku diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

**21 aprel** Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqqeyə Beynəlxalq Olimpiya Komitəsinin fəxri prezidenti Don Xuan Antonio Samarançın vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**22 aprel** Pakistanın müdafiə katibi Səyid Əthar Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**23 aprel** Polşa Respublikası Prezidentinin vəzifəsini icra edən Polşa Respublikası Seyminin sədri Bronislav Komorovskiyə ölkənin milli bayramı - Konstitusiya günü münasibətilə təbrik məktubu göndərmişdir.

**24 aprel** Moskvanın və Bütün Rusiyanın patriarxı Kirilli qəbul etmişdir.

**26 aprel** "Gülüstan" sarayında dünya dini liderlərinin ikigünlük Bakı sammitinin açılış mərasimində çıxış etmişdir.

Küveytin islam işləri və vəqf nazirinin müavini Adel Abdulla Əl-Fələhi qəbul etmişdir.

Bütün ermənilərin katolikosu II Qaregini qəbul etmişdir.

Haynz Fişerə Avstriya Respublikasının Federal Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**27 aprel** Stavropol vilayətinin qubernatoru Valeri Qayevskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Koreya Respublikasının Prezidenti Li Men Baka "Çeonan" hərbi gəmisinin qəzaya uğraması nəticəsində həmvətənlərinin həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**28 aprel** Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində "Aitf" IX Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisinin açılış mərasimində iştirak etmişdir.

Koreya Respublikasının Milli Assambleyasının üzvü Sanq Dikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əlcəzairin dini işlər və vəqflər naziri Buabdulla Qulamullanı qəbul etmişdir.

**M A Y**

**3 may** İran İslam Respublikasının daxili işlər naziri Mustafa Məhəmməd Nəccarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Norveç Kralı əlahəzrət V Haralda ölkənin milli bayramı - Konstitusiya günü münasibətilə təbrik məktubu göndərmişdir.

Kamerun Respublikasının Prezidenti Pol Biyaya ölkənin milli bayramı - Unitar dövlətin elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

Yəmən Respublikasının Prezidenti Əli Abdullah Salehə ölkənin milli bayramı - Yəmən Birliyi Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**5 may** Belarus Respublikası Baş nazirinin müavini, Azərbaycan-Belarus hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq üzrə komissiyanın həmsədri Andrey Kobyokovu qəbul etmişdir.

**6 may** Nigeriya Federativ Respublikası Prezidentinin vəzifəsini icra edən Nigeriya Federativ Respublikasının vitse-prezidenti Qudlak Conatana Nigeriya Federativ Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Umaru Yar'Aduanın vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**8 - 9 may** **Moskvada işgüzar səfərdə olmuşdur.**

**9 may** 1941-1945-ci illərin Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi münasibətilə Moskvada keçirilən bayram tədbirlərində iştirak etmişdir.

Moskvada Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç ilə görüşü olmuşdur.

**10 may** Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə Kemerovo vilayətindəki "Raspadskaya" şaxtasında partlayışlar nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**11 may** Amerika Birləşmiş Ştatlarının Los-Anceles dairəsinin şerifi Leroy Bakanı qəbul etmişdir.

Rusiya Federasiyasının müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.

İordaniya Kralı Əlahəzrət II Abdullaya ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Gürcüstan Prezidenti Mixeil Saakaşviliyə ölkənin milli bayramı - Dövlət müstəqilliyinin bərpası günü münasibətilə təbrik məktubu göndərmişdir.

**12 may** ABŞ dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.

Devid Kamerona Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin edilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

Liviya İnqilabının rəhbəri, Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin başçısı Müəmmər Əl-Qəzzafiyə Tripoli beynəlxalq hava limanında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**13 may** ***Azərbaycana rəsmi səfərə gəlmiş Serbiya Respublikasının Prezidenti Boris Tadiç ilə təkbətək görüşü olmuşdur.***

**13 may** Azərbaycan və Serbiya prezidentlərinin iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə danışıqları olmuşdur.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra "Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin Birgə Bəyannaməsi"ni imzalamışdır.

Azərbaycan-Serbiya sənədlərinin imzalanması mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

Niderland Kraliçası Beatriksə Tripoli şəhərinin hava limanında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxlu sayda həmvətənin həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**14 may** Çexiya Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohoutun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**16 may** ***Azərbaycana rəsmi səfərə gəlmiş İordaniya Kralı II Abdullah ilə təkbətək görüşü olmuşdur.***

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə danışıqları olmuşdur.

Geniş tərkibdə görüşdən sonra dövlət başçılarının birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

**17 may** Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan və Türkiyənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Geniş tərkibdə görüşdən sonra Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

Bakının Nəsimi rayonunda, Türkiyənin Azərbaycandakı səfirliyinin qarşısında, Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişməsindəki parkda, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsinin açılış mərasimində nitq soyləmişdir.

**20 may** Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə Zonquldak vilayətindəki "Karadon" kömür şaxtasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**22 may** Hindistan Respublikasının Prezidenti xanım Pratibha Devisinqh Patilə Manqalor şəhərinin hava limanı yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**24 may** Misir Ərəb Respublikasının xarici işlər naziri Əhməd Abul Ğeytin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

BMT Baş katibinin müavini xanım Aşa Rouz Migironun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**24 may** BMT baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Avropa Şurası baş katibinin müavini xanım Mod De Bur Bukikkionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransının iştirakçılarına təbrik məktubu göndərmişdir.

İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Ciorcio Napolitanoya ölkənin milli bayramı - Respublika elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

İsveç Kralı XVI Karl Qustava ölkənin milli bayramı - İsveç bayrağı günü münasibətilə təbrik məktubu göndərmişdir.

**28 may** Nepal Federativ Demokratik Respublikasının Prezidenti Ram Baran Yadava ölkənin milli bayramı - Respublika günü münasibətilə təbrik məktubu göndərmişdir.

**29 may** Hindistan Respublikasının Prezidenti xanım Pratibha Devisinqh Patilə ölkədə baş vermiş dəmir yolu qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdariyə Lahor şəhərində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**31 may** Çin Xalq Respublikasının Mərkəzi Bankının sədri Çjou Syaoçuanı qəbul etmişdir.

## İ Y U N

**1 iyun** ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bakı Sərgi Mərkəzində XVII Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransının açılış mərasimində nitq soyləmişdir.

**2 iyun** Avropa Yenidənqurma və İnkişaf Bankının Direktorlar Şurasının üzvü Verner Qruberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Portuqaliya Respublikasının Prezidenti Anibal Kavaku Silvaya Milli bayram - Portuqaliya Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Rusiya Federasiyasinin Prezidenti Dmitri Medvedevə Dövlət bayramı – Rusiya günü münasibətilə təbrik məktubu göndərmişdir.

Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası ülyahəzrət II Elizabetə ölkənin milli bayramı - Təvəllüd günü münasibətilə təbrik məktubu göndərmişdir.

**3 iyun** ***Azərbaycana rəsmi səfərə gəlmiş Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olmuşdur.***

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə danışıqları olmuşdur.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra "Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə bəyannaməsi"ni imzalamışdır.

**4 iyun** Belarus Prezidenti Aleksandr Lukaşenko ilə birlikdə Xətai rayonu ərazisində Belarusun Azərbaycandakı səfirliyinin binasının təməlqoyma mərasimdə iştirak etmişdir.

Banqladeş Xalq Respublikasının Prezidenti Zillur Rəhmana ölkənin paytaxtı Dəkkə şəhərində baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**6 iyun** ABŞ müdafiə naziri Robert Qeytsi qəbul etmişdir.

**7 – 9 iyun** **Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur.**

İstanbulda Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə görüşü olmuşdur.

İstanbulda Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.

İstanbulda Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Azərbaycan-Türkiyə sənədlərin imzalanması mərasimində iştirak etmişdir.

İstanbulda Makedoniya Prezidenti Gyorge İvanov ilə görüşü olmuşdur.

İstanbulda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin zirvə toplantısında iştirak edən dövlət və hökumət başçıları şərəfinə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın adından verilmiş şam yeməyində iştirak etmişdir.

**8 iyun** İstanbulda, "Çırağan" sarayında Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üçüncü zirvə toplantısında çıxış etmişdir.

İstanbulda, "Çırağan" sarayında Türkiyə Prezidenti Abdullah Gülün adından zirvə görüşündə iştirak edən nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.

İstanbulda Rusiyanın Baş naziri Vladimir Putin ilə görüşü olmuşdur.

İstanbulda İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşü olmuşdur.

İstanbulda Azərbaycan jurnalistlərinə müsahibə vermişdir.

İstanbulun "Çırağan" sarayında dövlət və hökumət başçıları ilə birgə şam yeməyində iştirak etmişdir.

İstanbulda Ukrayna Prezidenti Viktor Yanukoviç ilə görüşü olmuşdur.

**10 iyun** Avropa Parlamenti Xarici Əlaqələr Komitəsi sədrinin müavini Fiorello Proveranı qəbul etmişdir.

III Beniqno Akinoya Filippin Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

Naoto Kana Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**17 iyun** **Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.**

Sankt-Peterburqda, "Konstantinovski" sarayında ARusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə görüşü olmuşdur.

Sankt-Peterburqda ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**22 iyun** BMT-nin ölkəmizdə yeni rezident-əlaqələndiricisi Fikrət Akçuranı qəbul etmişdir.

Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Silvia Mayer-Kaybiçin etimadnaməsini qəbul etmişdir.

Lüksemburqun Böyük Hersoqu Anriyə ölkənin milli bayramı – Böyük Hersoqun Təvəllüd Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Xorvatiya Respublikasının Prezidenti Ivo Yosipoviçə ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Sloveniya Respublikasının Prezidenti Danilo Türkə ölkənin milli bayramı – Dövlətçilik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**23 iyun** Bakıda, "Gülüstan" sarayında İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısının açılış mərasimində nitq soyləmişdir.

**23 iyun** Avstriya Respublikasının xarici işlər naziri Mixael Şpindeleqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İran İslam Respublikasının iqtisadiyyat və maliyyə naziri Seyid Şəmsəddin Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondunun (İFAD) prezidenti Kanayo Nunzeni qəbul etmişdir.

**24 iyun** Belarus Respublikasinin Prezidenti zati-aliləri cənab Aleksandr Lukaşenkoya Belarus Respublikasının milli bayramı – Respublika Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Malavi Respublikasının Prezidenti zati-aliləri cənab Binqu Va Mutarikaya ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**28 iyun** Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Per Stançinanı fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul etmişdir.

**29 iyun** Fransanın GDF SUEZ şirkətinin prezidenti və baş direktorunun müavini, AVROQAZ-ın prezidenti Jan-Fransua Sirellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

BMT-nin Sənayenin İnkişafı Təşkilatının baş direktoru Kandeh Yumkellanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Suriya Ərəb Respublikasının neft və mineral ehtiyatlar naziri, Suriya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Sufyan Alaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Albaniya parlamentinin sədri Jozefina Topallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Litva Respublikasının Prezidenti xanım Dalya Qribauskayteyə Litva Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi Algirdas Brazauskasın vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**30 iyun** Kanadanın General-Qubernatoru zati-aliləri xanım Mişel Jana ölkənin milli bayramı – Kanada günü münasibətilə təbrik məktubu göndərmişdir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebini qəbul etmişdir.

***Azərbaycana rəsmi səfərə gəlmiş Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov ilə görüşü olmuşdur.***

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə görüşü olmuşdur.

Geniş tərkibdə görüşdən sonra mətbuat üçün bəyanatla çıxış etmişdir.

## İ Y U L

**1 iyul** Pal Şmittə Macarıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**2 iyul** Avropa Yayımları Birliyinin prezidenti Jan Pol Filippo başda olmaqla Avropa Yayımları Birliyi idarə heyətinin rəhbərliyini qəbul etmişdir.

Kristian Vulfa Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

Monqolustanın Prezidenti Saxiaqiyn Elbeqdorja ölkənin milli bayramı – Xalq inqilabı günü münasibətilə təbrik məktubu göndərmişdir.

Fransa Respublikasının Prezidenti Nikola Sarkoziyə Fransa Respublikasının milli bayramı – Bastiliyanın alınması günü münasibətilə təbrik məktubu göndərmişdir.

Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviçə Monteneqro Respublikasının milli bayramı – Dövlətçilik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**3 iyul** Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamaya Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**4 iyul** ABŞ-ın dövlət katibi Hillari Klintonu qəbul etmişdir.

Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Allan Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**5 iyul** İran İslam Respublikasının mədəniyyət və islam maarifləndirilməsi naziri Seyid Məhəmməd Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**6 iyul** Bp şirkətinin icraçı direktoru Toni Heyvordu qəbul etmişdir.

İraq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Heydər Şiyə Qubeyşi Əl-Barrakın etimadnaməsini qəbul etmişdir.

Bronislav Komorovskiyə Polşa Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**7 iyul** Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Misirin neft naziri Samih Fehminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**9 iyul** Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kşiştof Krayevskini diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Xanım Roza Otunbayevaya Qırğızıstan Respublikasının keçid dövrü Prezidenti vəzifəsinin icrasına başlaması münasibətilə təbrik məktubu göndərmişdir.

Misir Ərəb Respublikasının Prezidenti Məhəmməd Hüsni Mübarəkə Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə təbrik məktubu göndərmişdir.

Maldiv Respublikasının Prezidenti Məhəmməd Naşidə Maldiv Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Belçikanın Kralı II Albertə ölkənin Milli bayramı – Kralın andiçmə günü münasibətilə təbrik məktubu göndərmişdir.

Peru Respublikasının Prezidenti Alan Qarsiyaya ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Mərakeşin Krali VI Məhəmmədə ölkənin milli bayramı – Taxt-tac günü münasibətilə təbrik məktubu göndərmişdir.

**10-11 iyul** **MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Ukraynada işgüzar səfərdə olmuşdur.**

**10 iyul** Yaltada, məşhur Livadiyski sarayında MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmişdir.

**12 iyul** Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jeno Boroşu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Norveçin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yon Ramberqi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

**14 iyul** Latviyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixails Popkovsu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

İsveçin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hans Qunnar Adeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Makedoniya Respublikasının Prezidenti Gyorge Ivanova ölkənin milli bayramı – Respublika günü münasibətilə təbrik məktubu göndərmişdir.

İsveçrə Konfederasiyasının Prezidenti xanım Doris Loytharda ölkənin milli bayramı – Konfederasiyanın yaranması günü münasibətilə təbrik məktubu göndərmişdir.

Sinqapur Respublikasının Prezidenti Sellapan Ramanatana ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**15 iyul** Portuqaliyanın xarici işlər naziri Luis Amadonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

***Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləziz ilə təkbətək görüşü olmuşdur.***

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə görüşü olmuşdur.

Geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan və Mavritaniya Prezidentlərinin Birgə bəyannaməsini imzalamışdır.

**16 iyul** İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejada Zahedan şəhərində baş vermiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

Batumidə Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə təkbətək görüşü olmuşdur.

Batumidə Azərbaycan və Gürcüstan Prezidentlərinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Batumidə ölkə başçılarının birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

**19 iyul** Ukraynanın xarici işlər naziri Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İndoneziya Respublikasının Prezidenti Susilo Bambanq Yudhoyonoya ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzaiyə ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Macarıstan Respublikasının Prezidenti Pal Şmittə ölkənin milli bayramı - Müqəddəs İştvan günü münasibətilə təbrik məktubu göndərmişdir.

Ukrayna Prezidenti Viktor Yuşşenkoya ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Moldova Respublikasının Prezidentinin vəzifəsini icra edən Mihay Gimpuya ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Qırğızıstan Respublikasının keçid dövrü Prezidenti xanım Roza Otunbayevaya ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Malayziyanın ali başçısı Tuanku Mizan Zeynal Abidin ibn əl-Mərhum Sultan Mahmud əl-Müktəfi Billah şaha ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**20 iyul** BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Supaçay Paniçpakdini qəbul etmişdir.

İtaliyanın ENİ şirkətinin icraçı direktoru Paulo Skaroninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**22 iyul** TOTAL şirkətinin təhqiqat və istehsal üzrə prezidenti İv Lui Darrikarrerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**23 iyul** Gürcüstanın Baş naziri Nika Qilaurini qəbul etmişdir.

**26 iyul** Almaniya Federativ Respublikasının Prezidenti Kristian Vulfa Duysburq şəhərində baş vermiş faciə ilə əlaqədar başsağlığı vermişdir.

**28 iyul** Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdariyə ölkədə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**28 iyul** Türkiyənin xarici ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağlayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**29 iyul** Sosialist İnternasionalının baş katibi Luis Ayalanı qəbul etmişdir.

YUNESKO-nun baş direktoru xanım İrina Bokovanı qəbul etmişdir.

## AVQUST

**2 avqust** Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdariyə ölkədə baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı əlaqədar başsağlığı vermişdir.

**9 avqust** Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jan Lukas İnayat van Hoornu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

**12 avqust** Çin Xalq Respublikasının Sədri Hu Szintaoya ölkəsində baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar başsağlığı vermişdir.

**16 avqust** ***Azərbaycana rəsmi səfərə gəlmiş Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə görüşü olmuşdur.***

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

"Gülüstan" sarayında Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün şərəfinə verilmiş rəsmi ziyafətdə nitq söyləmişdir.

Özbəkistan Respublikasının Prezidenti İslam Kərimova ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Liviya İnqilabının rəhbəri, Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin başçısı Müəmmər Əl-Qəzzafiyə ölkənin milli bayramı – Böyük İnqilab Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Vyetnam Sosialist Respublikasının Prezidenti Nquyen Minh Çietə ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Braziliya Federativ Respublikasının Prezidenti Luis İnasiu Lula Da Silvaya ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Koreya Xalq Demokratik Respublikasi dövlət müdafiə komitəsinin sədri Kim Çen İrə ölkənin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə təbrik məktubu göndərmişdir.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

**27 avqust** Çin Xalq Respublikasının Sədri Hu Szintaoya ölkəsində baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**31 avqust** Müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.

## S E N T Y A B R

**1 sentyabr** Meksika Birləşmiş Ştatlarının Prezidenti Felipe Kalderon İnoxosaya ölkənin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

Malta Respublikasının Prezidenti Corc Abelaya ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

İki Müqəddəs Ocağın xadimi, Səudiyyə Ərəbistanın kralı Abdullah Bin Əbdüləzizi al Səuda ölkənin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, baş nazirin müavini, müdafiə və aviasiya naziri Sultan bin Əbdüləziz al Səuda ölkənin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

**2 sentyabr** ***Rusiya Prezidenti Dmitri Medvedev Azərbaycana rəsmi səfərə gəlmişdir.***

"Gülüstan" sarayında ölkəmizə rəsmi səfərə gələn Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin şərəfinə təşkil edilmiş rəsmi ziyafətdə nitq soyləmişdir.

**3 sentyabr** Rusiyadan ölkəmizə qanunsuz gətirilmiş ikonaları və incəsənət əsərlərini Prezident Dmitri Medvedevə təqdim etmişdir.

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə görüşü olmuşdur.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev ilə təkbətək görüşü olmuşdur.

Rusiya Prezidenti Dmitri Medvedev ilə birlikdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmiş, Dənizkənarı Milli Parkda olmuşdur.

Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdariyə ölkəsində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**6 sentyabr** Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Arjen Peter Uijterlindenin etimadnaməsini qəbul etmişdir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**7 sentyabr** ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**8 sentyabr** ABŞ dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.

Niderland Krallığı Senatının sədri Rene Van der Lindeni qəbul etmişdir.

**10 sentyabr** Rusiya Prezidenti Dmitri Medvedevə Vladiqafqazda terror aktı nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**13 sentyabr** ***Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə görüşü olmuşdur.***

***Rumıniya Prezidenti Trayan Besesku ilə görüşü olmuşdur.***

Dünya Bankının vitse-prezidenti Filip Le Uerunu qəbul etmişdir.

Latviyanın sabiq Prezidenti xanım Vayra Vike-Freyberqanı qəbul etmişdir.

**14 sentyabr** Rumıniya Prezidenti Trayan Besesku, Gürcüstan Prezidenti Mixeil Saakaşvili və Macarıstanın Baş naziri Viktor Orban ilə dördtərəfl görüşü olmuşdur.

"Azərbaycan-Gürcüstan-Rumıniya İnterconnector" (AGRİ) layihəsinə həsr olunmuş görüşdə çıxış etmişdir.

Macarıstanın Baş naziri Viktor Orban ilə görüşü olmuşdur.

AGRİ layihəsinə dair Bakı Bəyannaməsi imzalandıqdan sonra Rumıniya Prezidenti Trayan Besesku, Gürcüstan Prezidenti Mixeil Saakaşvili və Macarıstanın Baş naziri Viktor Orban ilə birgə keçirilmiş mətbuat konfransında bəyanatla çıxış etmişdir.

Rumıniya Prezidenti Trayan Besesku və Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə birgə Dənizkənarı Milli Parkda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda və Fəvvarələr meydanında olmuşdur.

Rumıniya Prezidenti Trayan Besesku və Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə birgə şam etmişdir.

Azərbaycan Prezidentinin adından ölkəmizdə səfərdə olan Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin və Macarıstanın Baş naziri Viktor Orbanın şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə telefonla zəng edərək ad günü münasibətilə təbrik etmişdir.

**15 sentyabr** MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin Bakıda keçirilən XI iclasında iştirak edən nümayəndə heyətlərinin rəhbərlərini qəbul etmişdir.

**15-16 sentyabr** **Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında iştirak etmək üçün Türkiyə Respublikasında səfərdə olmuşdur.**

İstanbulda, "Çırağan" sarayında Türkiyə Prezidenti Abdullah Gül ilə görüşü olmuşdur.

İstanbulda, "Çırağan" sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə"ni imzalamışdır.

İmzalanma mərasimindən sonra bəyanatla çıxış etmiş və jurnalistlərin suallarına cavab vermişdir.

**16 sentyabr** İstanbulda, "Çırağan" sarayında Qırğızıstanın keçid dövrü Prezidenti Roza Otunbayeva ilə görüşü olmuşdur.

İstanbulda, "Çırağan" sarayında Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşü olmuşdur.

İstanbulda, "Çırağan" sarayında Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında çıxış etmişdir.

Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısı başa çatdıqdan sonra prezidentlər birgə mətbuat konfransı keçirmişlər.

**17 sentyabr** Çin Xalq Respublikasının Sədri Hu Szintaoya ölkənin milli bayramı – ÇXR-nın yaranması günü münasibətilə təbrik məktubu göndərmişdir.

Almaniya Federativ Respublikasının l Prezidenti Kristian Vulfa ölkənin milli bayramı – Alman Birliyi Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Koreya Respublikasının Prezidenti Li Men Baka ölkənin milli bayramı – Dövlətin yaranması günü münasibətilə təbrik məktubu göndərmişdir.

**22-24 sentyabr** **Nyu-Yorkda keçirilən BMT baş məclisinin 65-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarındaa işgüzar səfərdə olmuşdur.**

Nyu-Yorkda Amerika Birləşmiş Ştatları dövlət katibinin Avrasiya energetika məsələləri üzrə nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.

**23 sentyabr** Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının mənzil-qərargahında təşkilatın Baş Məclisinin 65-ci sessiyasında çıxış etmişdir.

**24 sentyabr** Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obama ilə görüşü olmuşdur.

**27-28 sentyabr** **Özbəkistan Respublikasında rəsmi səfərdə olmuşdur.**

**27 sentyabr** Daşkənddə Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov ilə təkbətək görüşü olmuşdur.

Daşkənddə təkbətək görüş başa çatdıqdan sonra dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə danışıqları keçirilmişdir.

Daşkənddə geniş tərkibdə görüşdən sonra mətbuat üçün bəyanatla çıxış etmişdir.

Daşkənddə geniş tərkibdə görüş başa çatdıqdan sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi keçirilmişdir.

Daşkənddə Özbəkistan parlamentinin yuxarı palatası – Senatın binası ilə tanış olmuşdur.

Özbəkistan Prezidenti İslam Kərimov ilə birlikdə Daşkəndin mərkəzindəki Müstəqillik meydanı kompleksində olmuşdur.

Özbəkistan Prezidenti İslam Kərimov ilə birlikdə Daşkəndin mərkəzində yerləşən Forumlar Sarayında olmuşdur.

**27 sentyabr** Özbəkistan Prezidenti İslam Kərimov ilə birlikdə Daşkənddəki "Həzrəti-İmam" məscid kompleksində olmuşdur.

Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına mədəniyyət mərkəzinin binasının açılış mərasimində iştirak etmişdir.

Daşkənddə Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun adından təşkil edilmiş rəsmi ziyafətdə nitq söyləmişdir.

**28 sentyabr** İran İslam Respublikasının birinci vitse-prezidentinin iqtisadi məsələlər üzrə müavini Əli Ağaməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İspaniya Kralı I Xuan Karlosa İspaniya Krallığının milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**29 sentyabr** Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hardiys Baumanisin etimadnaməsini qəbul etmişdir.

Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Herbert Kvellenin etimadnaməsini qəbul etmişdir.

Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Erling Şönsberqin etimadnaməsini qəbul etmişdir.

**30 sentyabr** Heydər Əliyev adına İdman-Konsert Kompleksində "Caspian Agro-2010" III Beynəlxalq kənd təsərrüfatı, ərzaq emalı və qablaşdırma sərgisi ilə tanış olmuşdur.

Ukraynanın yanacaq və energetika naziri Yuri Boykonu qəbul etmişdir.

Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Masamitsu Okini diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

## OKTYABR

**4 oktyabr** Bakıda yəhudi məktəbinin açılışı münasibətilə respublikamıza gələn yəhudi icmalarının nümayəndələrini qəbul etmişdir.

**5 oktyabr** Rumıniya Prezidenti Trayan Beseskuya anası Yelena Beseskunun vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**6 okytabr** Naxçıvanda ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ ətrafındakı ərazilərdə qiymətləndirici missiyasının üzvlərini, ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**7 oktyabr** bp-nin icraçı direktoru Robert Dadlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rusiya Federasiyası hökumətinin sədri Vladimir Putinə telefonla zəng edərək ad günü münasibətilə təbrik etmişdir.

**11 oktyabr** İran İslam Respublikasının müdafiə naziri Əhməd Vəhidinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İran İslam Respublikası xarici işlər nazirinin müavini, Prezidentin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mohammməd Mehdi Axundzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**12 oktyabr** İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Adel Mohammad Adailehin etimadnaməsini qəbul etmişdir.

Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qais Salim Ali Al Saidin etimadnaməsini qəbul etmişdir.

Venesuela Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Devid Nieves Velaskes Karaballonun etimadnaməsini qəbul etmişdir.

Zambiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Patrik Nailobi Sinyinzanın etimadnaməsini qəbul etmişdir.

Mavritaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sidi Mohamed Ould Taleb Amarın etimadnaməsini qəbul etmişdir.

Bosniya və Herseqovina Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dragolyub Lyepoyanın etimadnaməsini qəbul etmişdir.

Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jaime Enrike Qarsiya Amaralın etimadnaməsini qəbul etmişdir.

**13 oktyabr** Ukrayna Prezidenti Yanukoviçə Dnepropetrovsk vilayətində qəza nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

Avstriya Respublikasının Federal Prezidenti Haynz Fişerə ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

**13 oktyabr** Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova ölkənin milli bayramı-Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Çexiya Respublikasının Prezidenti Vatslav Klausa ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə ölkənin milli bayramı - Respublika Günü münasibətilə təbrik məktubu göndərmişdir.

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğana ölkənin milli bayramı - Respublika Günü münasibətilə təbrik məktubu göndərmişdir.

**16 oktyabr** Rusiya Federasiyası Olimpiya Komitəsinin fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin üzvü Vitali Smirnovu və Atıcılıq üzrə Avropa Konfederasiyasının sədri Vladimir Lisini qəbul etmişdir.

ATƏT PA-nın vitse-prezidenti, Azərbaycanda parlament seçkiləri üzrə ATƏT-in müşahidəçi missiyasının rəhbəri Volfqanq Qrossrukun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**18 oktyabr** Mark Ryutteyə Niderland Krallığının Baş naziri vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**19 oktyabr** ABŞ-ın maliyyə katibinin müavini Stüart Livinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**20 oktyabr** Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqtonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**21 oktyabr** Avropa Şurası Parlament Assambleyasının Azərbaycanda keçiriləcək parlament seçkilərinin müşahidə olunması üzrə Xüsusi Komitəsinin Seçkiqabağı Missiyasının rəhbəri Pol Villin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikaya ölkənin milli bayramı - İnqilab günü münasibətilə təbrik məktubu göndərmişdir.

**25 oktyabr** Ukrayna Milli Telekompaniyasına, bu ölkənin "Profil-Ukrayna" jurnalına və "Den" qəzetinə müsahibə vermişdir.

**26 oktyabr** Fələstin Muxtariyyətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nəssir Əbdül Kərim Əbdül Rəhimin etimadnaməsini qəbul etmişdir.

Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixal Labendanın etimadnaməsini qəbul etmişdir.

Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şusuke Vatanabenin etimadnaməsini qəbul etmişdir.

**27 oktyabr** **Rusiya Federasiyasında işgüzar səfərdə olmüşdür.**

Həştərxanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin açılış mərasimində iştirak etmişdir.

Həştərxanda Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə görüşü olmuşdur.

**27 oktyabr** Həştərxan Kremli və şəhərin görməli yerləri ilə tanış olmuşdur.

Həştərxanda ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**27 – 28 oktyabr** **Ukraynayda rəsmi səfərdə olmuşdur.**

**28 oktyabr** Kiyevdə Ukrayna Prezidenti Viktor Yanukoviç ilə təkbətək görüşü olmuşdur.

Ukrayna Prezidenti Viktor Yanukoviç ilə təkbətək görüşündən sonra iki ölkənin Prezidentləri Şurasının ikinci iclasında çıxış etmişdir.

Kiyevdə, Azərbaycan və Ukrayna Prezidentləri Şurasının ikinci iclasından sonra Azərbaycan-Ukrayna sənədlərini imzalamışdır.

Kiyevdə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra mətbuat üçün bəyanatla çıxış etmişdir.

Kiyevdə Ukraynanın Baş naziri Nikolay Azarovu qəbul etmişdir.

Kiyev şəhərindəki "Naməlum əsgər" abidəsini ziyarət etmişdir.

Kiyevdə Ukrayna Prezidenti Viktor Yanukoviç ilə birlikdə 1930-cu illərdə aclıqdan həlak olanların xatirəsinə ucaldımış abidəni ziyarət etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kiyevin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.

Kiyevdə Ukrayna Prezidenti Viktor Yanukoviçin adından Azərbaycan Prezidentinin şərəfinə verilmiş rəsmi naharda çıxış etmişdir.

Argentina Respublikasının Prezidenti xanım Kristina Fernandes de Kirşnerə həyat yoldaşı, Argentinanın keçmiş Prezidenti, görkəmli dövlət xadimi Nestor Kirşnerin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**29 oktyabr** Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə telefonla zəng edərək ad günü və eləcə də Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə təbrik etmişdir.

İndoneziya Respublikasının Prezidenti Susilo Bambanq Yudhoyonoya ölkəsində baş vermiş irimiqyaslı təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

## NOYABR

**2 noyabr** bp-nin icraçı vitse-prezidenti Endi İnqlisi bu vəzifədə fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir.

Türkiyə Respublikasının milli müdafiə naziri Vecdi Gönülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xanım Dilma Rousseffə Braziliya Federativ Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**3 noyabr** Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə Rusiyanın görkəmli dövlət və ictimai-siyasi xadimi Viktor Stepanoviç Çernomırdinin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zaid Al Nəhəyana Ras Əl-Xeyma Əmirliyinin Hakimi Şeyx Saqr bin Məhəmməd Əl-Qasiminin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**5 noyabr** Avropa Parlamenti seçki müşahidə missiyasının üzvlərini qəbul etmişdir.

**6 noyabr** Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini, MDB Parlamentlərarası Assambleyanın müşahidəçilər qrupunun əlaqələndiricisi Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Raul Kastro Rusa ölkəsində baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**8 noyabr** MDB İcraiyyə Komitəsinin icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.

Omanın sultanı Qabus Bin Səidə ölkənin milli bayramı - Təvəllüd günü münasibətilə təbrik məktubu göndərmişdir.

Latviya Respublikasının Prezidenti Valdis Zatlersə ölkənin milli bayramı - Latviya Respublikasının elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd uld Əbdüləzizə ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Albaniya Respublikasının Prezidenti Bamir Topiyə ölkənin milli bayramı – Bayraq günü münasibətilə təbrik məktubu göndərmişdir.

**10 noyabr** İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**13 noyabr** Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdariyə ölkəsində törədilmiş amansız terror aktları və bunların nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

**17 noyabr** ***Azərbaycana rəsmi səfərə gəlmiş İran İslam Respublikası Prezidenti Mahmud Əhmədinejad ilə təkbətək görüşü olmuşdur.***

**17 noyabr** Azərbaycan və İran prezidentlərinin iştirakı ilə Azərbaycanla İran arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanma mərasimi olmuşdur.

Azərbaycan ilə İran arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasından sonra Prezident Mahmud Əhmədinejad İranda istehsal olunan sutəmizləyici qurğunu, cərəyan tuneli mikroskopunu və uşaqların eşitmə qabiliyyətini müəyyənləşdirən cihazı Azərbaycan Prezidentinə təqdim etmişdir.

Dövlət başçılarının iştirakı ilə nümayəndə heyətlərinin geniş tərkibdə danışıqları olmuşdur.

Geniş tərkibdə görüşdən sonra dövlət başçılarının birgə mətbuat konfransında bəyanatla çıxış etmişdir.

**18 noyabr** ***Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşmüşdür.***

***Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.***

***Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev ilə görüşmüşdür.***

Bakıda keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Dmitri Medvedev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, İran Prezidenti Mahmud Əhmədinejad və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iştirak etmişlər.

Bakıda keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşündə nitq söyləmişdir.

Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşündən sonra sənədlərin imzalanması mərasimi olmuşdur.

Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşünün sənədlərinin imzalanmasından sonra prezidentlər mətbuata bəyanatlarla çıxış etmişdilər.

**19 – 21 noyabr** **NATO-nun zirvə toplantısında iştirak etmək üçün Portuqaliyanın paytaxtı Lissabonda səfərdə olmüşdür.**

**20 noyabr** Portuqaliyanın paytaxtı Lissabonda NATO-nun zirvə toplantısı çərçivəsində Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (İSAF) töhfə verən ölkələrin dövlət və hökumət başçılarının iclasında iştirak etmişdir.

**22 noyabr** Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rumıniyanın Prezidenti Trayan Beseskuya ölkənin milli bayramı – Birlik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zaid Al Nəhyana ölkənin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə təbrik məktubu göndərmişdir.

**22 noyabr** Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktuma ölkənin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə təbrik məktubu göndərmişdir.

Laos Xalq Demokratik Respublikasının Prezidenti Çoummali Sayasoneyə ölkənin milli bayramı – Laos Xalq Demokratik Respublikasının elan edilməsi günü münasibətilə təbrik məktubu göndərmişdir.

Tailandın Kralı Bhumibol Adulyadejə ölkənin milli bayramı – Təvəllüd günü münasibətilə təbrik məktubu göndərmişdir.

Burkina-Fasonun Prezidenti Blez Kompaoreyə ölkənin milli bayramı – Respublika günü münasibətilə təbrik məktubu göndərmişdir.

**23 noyabr** Almaniya Federativ Respublikasının keçmiş xarici işlər naziri, Almaniya hökumət koalisiyasına daxil olan Azad Demokrat Partiyasının fəxri sədri Hans-Ditrix Genşerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bakı Sərgi Mərkəzində "BakuTel-2010" XVI Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olmuşdur.

**24 noyabr** Polşa Respublikasının Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**25 noyabr** Türkmənistanın Baş nazirinin müavini Xıdır Saparlıyevi qəbul etmişdir.

ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

**26 noyabr** Monteneqronun xarici işlər naziri Milan Roçenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Böyük Britaniyanın Yorq Hersoqu, Şahzadə Endryunu qəbul etmişdir.

**29 noyabr** ABŞ-ın Alman Marşal Fondunun prezidenti Kreyq Kennedini qəbul etmişdir.

**30 noyabr – 2 dekabr** **ATƏT-in sammitində iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astanada səfərdə olmüşdür.**

Astanada ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviç ilə görüşmüşdür.

## D E K A B R

**1 dekabr** Qazaxıstanın paytaxtı Astanada ATƏT-in 7-ci sammitində iştirak etmişdir.

Astanada Türkiyə Prezidenti Abdullah Gül ilə görüşü olmuşdur.

Astanada Niderlandın Baş naziri Mark Rutten ilə görüşü olmuşdur.

Astanada Yunanıstanın Baş naziri George Papandreu ilə görüşü olmuşdur.

Astanada Avstraliyanın xarici işlər naziri Kevin Radd ilə görüşü olmuşdur.

Astanada Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə görüşü olmuşdur.

Astanada Avropa İttifaqının prezidenti Herman Van Rompey görüşü olmuşdur.

Astanada Sloveniya Prezidenti Danilo Türk ilə görüşü olmuşdur.

Astanada Böyük Britaniya Baş nazirinin müavini Nik Kleqq görüşü olmuşdur.

Astanada Avstriya Prezidenti Haynts Fişer ilə görüşü olmuşdur.

Astanada Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olmuşdur.

Astanada Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən ATƏT-in VII sammitində iştirak edən nümayəndə heyətlərinin başçılarının şərəfinə təşkil edilmiş qəbulda iştirak etmişdir.

**3 dekabr** İordaniyanın Kralı II Abdullaha babasının vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

Qətər Dövlətinin Əmiri şeyx Həməd bin Xəlifə Al Taniyə 2022-ci ildə futbol üzrə dünya çempionatının Qətər Dövlətində keçirilməsi barədə FİFA İcraiyyə Komitəsinin qərarı münasibətilə təbrik məktubu göndərmişdir.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə 2018-ci ildə futbol üzrə dünya çempionatının keçirilməsi hüququnun əldə edilməsi münasibətilə təbrik məktubu göndərmişdir.

Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedova qardaşı Hacımurad Maqomedovun həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**9 dekabr** Xanım Mişelin Kalmi-Reyə İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**9 – 10 dekabr** **MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskvada səfərdə olmuşdur.**

Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir.

**11 dekabr** İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alain Quidettini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Avstriyanın OMV Şirkəti İcraiyyə Şurasının sədri Volfqanq Ruttenstorferin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**11 dekabr** Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə ölkənin milli bayramı – Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Bəhreynin Kralı Şeyx Həməd bin İsa Al Xəlifəyə ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

Qətər Dövlətinin Əmiri şeyx Həməd bin Xəlifə Al Taniyə ölkənin milli bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

Yaponiya imperatoru Akihitoya ölkənin milli bayramı - Təvəllüd günü münasibətilə təbrik məktubu göndərmişdir.

**13 dekabr** Məşhur fransız aktyoru Jerar Depardyeni qəbul etmişdir.

**14 dekabr** Macarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jolt Çutoranın etimadnaməsini qəbul etmişdir.

**18 dekabr** Bəhreynin Kralı şeyx Həməd bin İsa Al Xəlifəyə qardaşı Şeyx Raşid bin İsa Al Xəlifənin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**21 dekabr** Gürcüstan Prezidenti Mixeil Saakaşviliyə telefonla zəng edərək ad günü münasibətilə təbrik etmişdir.

Aleksandr Lukaşenkoya Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**22 - 23dekabr** **İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak etmək üçün Türkiyə Respublikasında səfərdə olmuşdur.**

İstanbulda Türkiyə Prezidenti Abdullah Gül ilə görüşü olmuşdur.

İstanbulda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.

İstanbulda Qırğızıstanın keçid dövrü Prezidenti Roza Otunbayeva ilə görüşü olmuşdur.

İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilən XI Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə Baş nazir Rəcəb Tayyib Ərdoğanın adından təşkil edilmiş qəbulda iştirak etmişdir.

**23 dekabr** İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitinin zirvə toplantısında çıxış etmişdir.

İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə Türkiyə Prezidenti Abdullah Gülün adından verilmiş. naharda iştirak etmişdir.

**24 dekabr** Myanma İttifaqı Respublikasının Dövlət Sülh və İnkişaf Şurasının Sədri Tan Şveyə ölkənin milli bayramı - Müstəqillik günü münasibətilə təbrik məktubu göndərmişdir.

Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Raul Kastro Rusa ölkənin milli bayramı - Azadlıq günü münasibətilə təbrik məktubu göndərmişdir.